*Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 iyun 2017-ci il № 48 (2165) Qiyməti 25 qəpik


## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borclarını yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız həmişə milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilmişdir. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olan Azərbaycanda milli-dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. Mübarək Ramazan günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Bu il Ramazan ayı ölkəmizin həyatında bir sıra əlamətdar hadisələrlə eyni vaxta təsadüf etmişdir. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi, eyni zamanda, etnik-dini dözümlülük, dinlərarası həmrəylik və əməkdaşlıq məkanı olan ölkəmizin sivilizasiyalararası dialoq forumları kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi hazırkı narahat dünyamızda Azərbaycan dövlətinin sülh və təhlükəsizlik işinə verdiyi dəyərli töhfələrdir. Biz bəşəriyyətin gələcəyini hədəf alan hər cür qlobal təhdid və təhlükələrə qarşı ardıcıl mübarizəmizi, dialoq və həmrəylik təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

Əziz bacı və qardaşlarım!

Hər il Azərbaycanda böyük fərəh və könül xoşluğu ilə keçirilən orucluq mərasimləri cəmiyyətimizdə birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrilir. Bu əziz bayram günlərində bir daha hər birinizi, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram!

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 iyun 2017-ci il.

## Şirvan şəhərində tank əleyhinə qumbaraatan üçün sursat istehsalı zavodu istifadəyə verilib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin Şirvan şəhərindəki TƏQ-7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Müdafiə sənayesi naziri Yavər Camalov müəssisə barədə dövlətimizin başçısına məlumat verdi. Zavodun yaradılmasında əsas məqsəd tank və özüyeriyən artilleriya qurğuları, o cümlədən dinamik qoruyucu sistemlər ilə təchiz olunmuş, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq, bundan başqa açıq ərazilərdə, səngərlərdə yerləşən düşmənin canlı qüvvəsini məhv etmək üçün TƏQ-7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ - qəlpəli, kumulyativ tandem, termobarik və inert qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir. Bu sursatlar 700 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir.

Dövlətimizin başçısı zavodu işə saldı.

Məlumat verildi ki, zavod 10 istehsal sahəsindən, o cümlədən avtomatlaşdırılmış mexaniki emal, termiki emal, kimyəvi cilalama, partlayıcı maddələrin preslənməsi, ekspres laboratoriya, yığma sahələrindən ibarətdir. Hərbi sursatın yaradılması və istehsalı üçün müəssisədə dünyanın bu sahədə qabaqcıl ölkələrindən olan Almaniyanın, ABŞ-ın, Fransanın, Hollandiyanın, İtaliyanın, Bolqarıstanın, Avstriyanın, Türkiyənin, Ukraynanın və Tayvanın müvafiq şirkətlərinin müasir standartlara cavab verən 45 texnoloji avadanlığı alınaraq quraşdırılıb. Bu avadanlıqlar arasında proqramla idarə olunan torna və frez dəzgahları, müxtəlif güclü hidravlik və mexaniki preslər, termoplast avtomatlar, termiki və kameralı elektrik sobaları, yoxlama və sınaqların aparılması üçün müxtəlif çeşidli laboratoriya avadanlığı var. Eyni zamanda, döyüş sursatlarının qəbul-təhvil sınaqlarında texniki nəzarət işlərini aparmaq üçün 280 adda xüsusi və universal ölçü alətlərinin və tərtibatların alınması təmin edilib. Zavodda 170 yeni iş yeri yaradılıb. Bütün işçilərə xarici mütəxəssislər tərəfindən müvafiq təlimlər keçirilib. Eyni zamanda, partlayıcı maddələrlə işləyənlər müvafiq kurs keçərək xüsusi sertifikat alıblar. Zavodun illik istehsal gücü birnövbəli iş rejimində 20 min atəş yığımı təşkil edir ki, bu da güc strukturlarının tələbatını ödəməyə imkan verəcək. Bu məlumatlara xarici dövlətlərdən sifarişlərin olduğunu nəzərə alaraq gələcəkdə ixrac imkanları nəzərdən keçiriləcək.

Dövlətimizin başçısı müəssisənin kollektivinə uğurlar arzuladı.

# Prezident İlham Əliyev Şirvan şəhərində revolver tipli qumbaraatanlar üçün atəş yığımları zavodunun açılışını edib

*İyunun 23-də Şirvan şəhərində Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin 40x46 millimetrlik MSGL 40 tipli qumbaraatanlar üçün müxtəlif növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışı mərasimi olub.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev açılış mərasimində iştirak edib.

Müdafiə sənayesi naziri Yavər Camalov dövlətimizin başçısına məlumat verdi ki, zavodun yaradılmasında əsas məqsəd düşmənin canlı qüvvəsini və atəş vasitələrini məhv etmək, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq üçün 40x46 millimetrlik revolver tipli qumbaraatanlar üçün NATO standartlarına uyğun 4 növ - qəlpəli, kumulyativ-qəlpəli, işıqlandırıcı-paraşütlü və tüstülü qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir.



Dövlətimizin başçısı zavodu işə saldı.

Bildirildi ki, bu məmulatlar 400 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir. Müəssisədə mexaniki emal, ştamplama, kimyəvi cilalama, partlayıcı maddələrin preslənməsi, yığma, ümumilikdə, 7 istehsal sahəsi var. Məmulatın yaradılması və istehsalı üçün müasir standartlara cavab verən universal və xüsusi texnoloji avadanlıq - proqramla idarə olunan torna və frez dəzgahları, müxtəlif güclü hidravlik və mexaniki preslər, termoplast avtomatlar, termiki və kameralı elektrik sobaları İsveç, Almaniya, Türkiyə, Bolqarıstan, Serbiya, Sloveniya, Rusiya, İsrail və digər ölkələrin müvafiq qurumlarından alınıb.

Diqqətə çatdırılıb ki, zavodda məmulatların yaradılması və istehsalının mənimsənilməsi üçün tələb olunan alət və tərtibatlar texnoloji əməliyyatlara uyğun hazırlanaraq tətbiq edilib. Eyni zamanda, döyüş sursatlarının qəbul-təhvil sınaqlarında texniki nəzarət işlərini aparmaq üçün 300 adda xüsusi və universal ölçü aləti, həmçinin tərtibatlar alınıb. Layihə üzrə nəzərdə tutulan 40 işçiyə xarici mütəxəssislər tərəfindən müvafiq təlimlər keçirilib. Müəssisənin illik istehsal gücü birnövbəli iş rejimində 15 min atəş yığımı təşkil edir.

Bu cür müəssisələrin yaradılması ölkəmizdə müdafiə sənayesinin inkişafı istiqamətində görülən tədbirlərə böyük töhfədir. Belə zavodların işə düşməsi Azərbaycanın müdafiə potensialını gücləndirir, ölkəmizdə istehsal edilən hərbi təyinatlı məhsulların çeşidini artırır. Eyni zamanda, bu sahədə ixrac imkanlarımızı da genişləndirir, xaricdən asılılığımızı aradan qaldırır.

Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları və Müdafiə Nazirliyinin bir qrup hərbçisi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə nitq söylədi:

- Hörmətli hərbçilər, əziz dostlar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm, Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, qələbələr arzulayıram.

Bu gözəl bayram ərəfəsində biz Şirvan şəhərində müdafiə sənayesinin yeni zavodlarının açılışına toplaşmışıq. Bu, əlamətdar hadisədir. Bildiyiniz kimi, Müdafiə Sənayesi Nazirliyi mənim Sərəncamımla 2005-ci ilin dekabr ayında yaradılmışdır və bu illər ərzində böyük, uğurlu yol keçmişdir. O vaxt bu nazirliyin yaradılması imkan verdi ki, biz özümüzü hərbi texnika ilə, silah-sursatlarla böyük dərəcədə təmin edə bilək. Çünki o illərdə bizim böyük imkanlarımız yox idi, biz xarici istehsalçılardan asılı vəziyyətdə idik. Bəzən hansısa silahları ala bilirdik, bəzi hallarda ala bilmirdik. Ona görə, Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının əsas məqsədi idxaldan asılılığı azaltmaq, yeni iş yerləri yaratmaq və Azərbaycan Silahlı Qüvvələrini müasir texnika və silahlarla təmin etmək idi. Bugünkü nailiyyətlər və reallıq onu göstərir ki, biz məqsədimizə çata bilmişik.

Onu da qeyd etməliyəm ki, o vaxt bizim böyük vəsaitimiz də yox idi. Azərbaycan büdcəsinə əsas gəlirlərin əldə olunması 2006-cı ildən sonra başlamışdır, Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verilmişdir. 2005-ci ildə isə bizim maliyyə vəziyyətimiz bir qədər məhdud idi. Buna baxmayaraq bu məqsədlər, o cümlədən bu nazirliyin formalaşdırılması üçün dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılmışdır və bu gün nəticələr göz qabağındadır. Azərbaycanda 30-a yaxın hərbi zavod fəaliyyət göstərir və Silahlı Qüvvələrimizin tələbatı böyük dərəcədə ölkəmizdə istehsal edilən hərbi məhsullarla təmin olunur. Bu illər ərzində 1200-dən çox adda hərbi təyinatlı məhsulun istehsalı qaydaya salınıb. Demək olar ki, bu gün Azərbaycan bu istiqamət üzrə də dünya miqyasında öz layiqli yerini tuta bilibdir. Azərbaycanda güclü hərbi sənaye kompleksi yaradılıb və Şirvan şəhərində bir neçə hərbi müəssisə fəaliyyət göstərir. Təkcə Şirvan şəhərindəki müəssisələrdə 1200 nəfər işlə təmin edilibdir.

Hər bir ölkədə hərbi sənaye kompleksini yaratmaq üçün bir neçə vacib amil lazımdır. İlk növbədə vəsait, ondan sonra yeni texnologiyalar lazımdır. Yeni texnologiyaları əldə etmək üçün beynəlxalq əməkdaşlıq da mütləq yüksək səviyyədə olmalıdır. Kadr hazırlığı xüsusi yer tutur. Son illər ərzində bu istiqamətlər üzrə ardıcıl fəaliyyət aparılmışdır və bu gün Azərbaycan dünya miqyasında artıq hərbi sənaye kompleksinə malik olan aparıcı ölkələr sırasındadır. Bunu, eyni zamanda, təsdiqləyən ölkəmizdə iki dəfə keçirilmiş beynəlxalq hərbi sərgilərdir. Azərbaycan da, həmçinin bütün aparıcı beynəlxalq hərbi sərgilərdə öz məhsulu ilə iştirak edir. Bunun nəticəsində biz artıq nəinki özümüzü böyük dərəcədə təmin edirik,



bizdə gözəl ixrac potensialı da yaranmışdır. 2005-ci ildə isə bu barədə ancaq fikirləşmək olardı. Bəlkə də heç təsəvvürümüzə gəlmirdi ki, nə vaxtsa Azərbaycan hərbi məhsullar da ixrac edəcək. Bu, artıq reallıqdır. İş yerləri açılır, idxaldan asılılıq azalır, yeni texnologiyalar gətirilir, sənaye potensialı güclənir və Azərbaycan Silahlı Qüvvələri daxili istehsalla təmin olunur.

Şirvan şəhəri Bakıdan sonra Cənubi Qafqaz regionunda hərbi sənaye kompleksi baxımından ikinci yerdədir. Bu, Şirvan şəhərinin inkişafına böyük dəstək verir. Son illər ərzində şəhərin inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır. Sosial-iqtisadi məsələlər, infrastruktur məsələləri öz həllini tapmışdır. Bir neçə il bundan əvvəl Şirvanda böyük "Cənub" Elektrik Stansiyası fəaliyyətə başlamışdır. Onun gücü təxminən 800 meqavata yaxındır. Şirvanda böyük xəstəxana, Olimpiya Kompleksi, məktəblər, mədəniyyət mərkəzi, digər sosial və sənaye obyektləri fəaliyyətə başlamışdır. Bu gün də bu istiqamətdə işlər davam etdirilir. Şirvanda qazlaşdırma 100 faiz səviyyəsindədir. İçməli su məsələləri də həllini tapır. Beləliklə, hərbi-sənaye kompleksinin də Şirvanda yaradılması şəhərə növbəti bir töhfədir.

Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu həm biz deyirik, həm Azərbaycan ictimaiyyəti bunu görür və bilir. Aparıcı reytinq agentlikləri də bunu təsdiqləyir. Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır. Ordu quruculuğu daim diqqət mərkəzindədir. Büdcəmizin ən böyük xərcləri hərbi xərclərdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür. Həm yerli istehsal, həm də xaricdən gətirilən hərbi texnika hesabına biz bu gün təminat baxımından ən yüksək səviyyədəyik. Ən müasir silahlar, texnika, döyüş aparatları, təyyarələr, vertolyotlar, pilotsuz döyüş aparatları, artilleriya qurğuları, zirehli maşınlar, tanklar, toplar, hava hücumuna qarşı ən müasir qurğular, yəni, bütün bunlar bizim hərbi gücümüzü böyük dərəcədə artırmışdır. Növbəti illərdə də bu istiqamətdə ardıcıl iş aparılacaq. Bizim hərbi büdcəmiz kifayət qədər böyükdür. Bu məsələ bizim üçün prioritet məsələdir. Çünki daha demək istəyirəm ki, biz müharibə şəraitində yaşayırıq. Əgər müharibə olmasaydı, bəlkə də bu qədər vəsait bu məqsədlər üçün ayrılmazdı. Ancaq müharibə bitməyib, birinci mərhələ başa çatıb. Biz daim hazır olmalıyıq ki, işğal edilmiş torpaqları öz hərbi gücümüzlə azad edək.

**(Ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Şirvan şəhərində revolver tipli qumbaraatanlar üçün atəş yığımları zavodunun açılışını edib



(Əvvəli 2-ci səhifədə)

Bununla bərabər, son illər ərzində hərbçilərin xidmət və məişət problemləri də öz həllini tapmışdır. Son illərdə bir çox hərbi bazalar, şəhərciklər istifadəyə verilmişdir, hərbçilərin xidmət şəraiti böyük dərəcədə yaxşılaşmışdır. Məişət şəraiti də yaxşılaşır. Hazırda qəbul edilmiş qərarlar əsasında 20 il və 20 ildən çox qüsursuz xidmət göstərmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Hesab edirəm ki, bu da dünya miqyasında çox nadir hallarda müşahidə olunur. Bu da Azərbaycan dövlətinin həm sosial siyasətini ifadə edir, eyni zamanda, Azərbaycan dövlətinin öz hərbçilərinə olan diqqətini göstərir.

Ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bunu təmas xəttindəki vəziyyət əyani şəkildə təsdiqləyir. Bu gün biz təmas xəttində tam üstünlüyə malikik. Bu üstünlüyü biz əldə etmişik və bunu artırırıq. Bizim döyüş qabiliyyətimizi əks etdirən bir çox hadisələr olub. Onların içərisində keçənilki aprel döyüşləri xüsusi qeyd edilməlidir. Bu döyüşlər nəticəsində Ermənistanın hərbi təcavüzünün qarşısını alarkən bizim hərbçilərimiz böyük qəhrəmanlıq göstərərək işğalçılardan üç rayonun bir hissəsini azad etmişlər. O yerlərdə, o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri nəticəsində bu gün biz köçkünləri öz doğma kəndinə yola salırıq. Cocuq Mərcanlı kəndi cəmi iki ay ərzində bərpa edilib. Onun bərpasının birinci mərhələsi başa çatıb. Əlavə vəsait ayrılıbdır ki, kəndin bərpasının ikinci mərhələsi də başa çatsın.

Aprel döyüşləri bizim şanlı qələbəmizdir, böyük uğurdur. Bir daha onu göstərir ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Cocuq Mərcanlıya bu kəndin sakinlərinin qayıtması onu göstərir ki, bizim bütün köçkünlər öz doğma şəhərlərinə, kəndlərinə qayıtmaq arzusu ilə yaşayırlar. Bu gün Cocuq Mərcanlı bizim dirçəliş, qələbə rəmzimizdir. Keçən ilin aprelində işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu da hər bir vətənpərvər Azərbaycan vətəndaşını fərəhləndirir. Yəni, bizim kifayət qədər gücümüz var və Ermənistanın bütün təxribatlarına layiqli cavab veririk. Bir həftə bundan əvvəl yenə də bizə qarşı silahlı təxribat törədildi. Azərbaycan Ordusu düşmənə layiqli cavab vermişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına gəldikdə, Azərbaycan dövlətinin mövqeyi ictimaiyyətə bəllidir. Biz bu mövqeyi dəfələrlə ifadə etmişik. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb və bütün toponimlər, bütün tarixi abidələr Azərbaycan tarixini əks etdirir.

Dağlıq Qarabağ, eyni zamanda, dünya ictimaiyyəti tərəfindən də Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Bütün aparıcı beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı qərar, qətnamələr qəbul etmişlər ki, Ermənistan silahlı qüvvələri dərhal, qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Lakin Ermənistan buna məhəl qoymur, əməl etmir. Əfsuslar olsun ki, Ermənistana qarşı heç bir ciddi tədbir görülmür. Ermənistana qarşı çoxdan beynəlxalq sanksiyalar tətbiq olunmalı idi. Çünki bu ölkə XXI əsrdə başqa ölkənin ərazisini işğal altında saxlayır, başqa xalqa qarşı soyqırımı törədib, bütün tarixi abidələri dağıdıb. Cocuq Mərcanlının dağılmış mənzərəsi bunun əyani sübutudur. Bizim işğal edilmiş bütün torpaqlarda da eyni vəziyyətdir.

Beynəlxalq hüquqa gəldikdə isə beynəlxalq hüquq tarixi ədalət kimi tamamilə bizim mövqeyimizi gücləndirir. Dağlıq Qarabağda keçirilmiş son qondarma "referendum" da onların - separatçıların, işğalçıların növbəti iflası, növbəti biabırçılığı idi. Çünki bu "referendum"u heç bir beynəlxalq təşkilat, qonşu ölkələr, Avropa İttifaqı, Minsk qrupunun həmsədr ölkələri tanımayıb. Yəni, bu qondarma "referendum"u tanımamaqla bütün bu ölkələr və beynəlxalq təşkilatlar bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. O qondarma, separatçı xunta rejimini dünya birliyi tanımır və tanımayacaq. Ona görə, tarixi ədalət, beynəlxalq hüquq, əlbəttə ki, bizim siyasi çəkimiz Ermənistanla müqayisəedilməz dərəcədə böyükdür. Bizim iqtisadi gücümüz Ermənistanınkından qat-qat artıqdır. Yəni, bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əlbəttə, Azərbaycan dövləti



öz prinsipial mövqeyini daha da gücləndirməlidir və güclənməlidir. Bir daha demək istəyirəm ki, biz müharibə şəraitində yaşayırıq. Bizim xalqımız heç vaxt bu vəziyyətlə barışmayacaq. Biz heç vaxt icazə verməyəcəyik ki, tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Son hadisələr və ölkəmizin güclənməsi bu məsələyə nail olmaq üçün bizim imkanlarımızı artırır.



Əlbəttə, öz məqsədimizə çatmaq üçün biz daha da güclü olmalıyıq. Əfsuslar olsun ki, indi bütün dünyada güc amili aparıcı rol oynayır. Əlbəttə ki, beynəlxalq hüquq da vacibdir. Çünki bu, münaqişənin hüquqi bazasını yaradır. Ancaq güc amili əsas rol oynayır. Biz görürük ki, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq pozulur, tapdalanır, kim onu necə istəyirsə elə də yozur və güc amilindən istifadə edərək reallıqda vəziyyəti dəyişmək mümkün olur. Bu, bizim seçimimiz deyil, ancaq biz də real həyatda, real dünyada yaşayırıq. Məqsədimizə nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə işlər aparılır.

Azərbaycan bu il gözəl iqtisadi inkişaf templəri nümayiş etdirir, beş ayın yekunları çox müsbətdir. Qeyri-neft sektorumuz 2 faizdən çox, qeyri-neft sənayemiz 4 faizə yaxın, ixrac 40 faizdən çox artıbdır. Əminəm ki, gələn il göstəricilər daha da müsbət olacaq. Biz öz fəaliyyətimizi düşünülmüş siyasət əsasında qurmuşuq. Bizim daxili və xarici siyasətimiz, iqtisadi və sosial sahələrlə bağlı təşəbbüslərimiz həm beynəlxalq aləmdə, həm də xalq tərəfindən bəyənilir və dəstəklənir. Ölkəmizdə mövcud olan əmin-amanlığın, sabitliyin əsas səbəbi də məhz bundadır.

Bu gün Silahlı Qüvvələr Günü ərəfəsində biz Silahlı Qüvvələrimizin inkişafı ilə bağlı önəmli hadisəni qeyd edirik. Bu gün açılan iki sənaye müəssisəsi bizim hərbi gücümüzü daha da artıracaq və Azərbaycan quruculuq, inkişaf yolu ilə uğurla gedəcəkdir.

Bir daha sizi ürəkdən təbrik edirəm, bütün Silahlı Qüvvələrimizin şəxsi heyətinə yeni uğurlar, qələbələr arzulayıram.

* * *

Sonra Müdafiə sənayesi naziri Yavər Camalov və Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış etdilər.

Daha sonra Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi, hərbi qulluqçuların ordenlə təltif olunması barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamları oxundu.

Prezident, Ali Baş Komandan ali hərbi rütbələrin vəsiqələrini və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenini təltif olunan hərbi qulluqçulara təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

# 26 iyun - Silahlı Qüvvələr Günü və Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 26 iyun - Silahlı Qüvvələr Günü və müqəddəs Ramazan bayramı münasibəti ilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

İnsanlara mənəvi paklıq, təmizlik, mərhəmət, halallıq kimi ən yüksək əxlaqi hisslər aşılayan Ramazan bayramının yüksək səviyyədə qeyd olunması xalqımızın milli-mənəvi dəyərlərə verdiyi böyük dəyərin bariz nümunəsidir.

Silahlı Qüvvələrimiz 99-cu ildönümünü böyük ruh yüksəkliyi ilə, döyüş və mənəvi-psixoloji hazırlıqda qazandığı nailiyyətlərlə qeyd edir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də apardığı siyasət Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycanın əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə də cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir.

İstənilən iqlim şəraitində keçirilən genişmiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini nümayiş etdirir, Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir. Xalq öz ordusuna inanır, gücünə güvənir. Şəhid ailələri, müharibə veteran və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunub. İnanıram ki, bu sizi sevindirməklə yanaşı, məsuliyyətinizi daha da artırır.

Ordumuz əvvəllər olduğu kimi 2016-cı ilin aprel ayında da düşmən təxribatlarının qarşısını layiqincə aldı. Azərbaycan əsgəri doğma torpaqlarını azad etməyə qadir olduğunu, Vətən uğrunda son damla qanınadək vuruşmağı bacardığını və düşməndən üstün olduğunu bütün dünyaya sübut etdi.

Bu əziz gündə şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları bayram münasibətilə təbrik edir, onlara cansağlığı, xoşbəxtlik, ailə səadəti və uğurlar arzulayıram.

Əmin olduğumu bildirirəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq, hərbi intizamını artıracaq, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək, qazandığı uğur və nailiyyətlərlə xalqımızı sevindirəcək və tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızın azad edilməsinə nail olacaqdır.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## "Ermənistan cəbhədəki uğursuzluqlarına bəraət qazandırmaq üçün növbəti dəfə yalan məlumatdan istifadə edir"

Müdafiə Nazirliyi təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin 4 hərbçisinin həlak olması barədə Ermənistan tərəfinin yaydığı məlumatlara münasibət bildirib.

AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildiriblər ki, Ermənistanın hərbi rəhbərliyi cəbhədəki son itki və uğursuzluqlarına bəraət qazandırmağa və vahimə içində yaşayan erməni əhalisinə azacıq "inam" verməyə hesablanmış uydurma və yalan məlumatdan növbəti dəfə istifadə edib.

Qeyd edək ki, Ermənistan mətbuatı separatçı Dağlıq Qarabağ rejiminin "Müdafiə Nazirliyi"nə istinadla Azərbaycan xüsusi təyinatlılarının guya iyunun 21-dən 22-nə keçən gecə qarşıdurma xəttini keçmək cəhdinin qarşısının alındığı və 4 nəfər itki verərək geri çəkilmək məcburiyyətində qaldığı barədə məlumat yayıb.

# Genişmiqyaslı təlimlərin döyüş atışlı mərhələsi keçirilib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, iyun ayının 19-da başlamış genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, əsas mərhələdə artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya, eləcədə digər birləşmələr silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin planlı şəkildə təşkil etdiyi kompleks döyüş hazırlığı tədbirləri bütün qoşun növlərində şəxsi heyətin taktiki və ixtisas bacarığının artırılmasına yönəlib. Quru Qoşunlarında, Hərbi Hava və Hərbi Dəniz Qüvvələrində şəxsi heyət gündəlik məşğələlərdə, praktik dərslərdə, poliqonlarda keçirilən məşqlərdə taktiki vərdişlərə yiyələnir, qarşılıqlı əlaqələri möhkəmlədir, sərəncamlarına verilmiş modern silahlardan və döyüş texnikasından istifadə etməyi mənimsəyir. Bütün bunların yekunu olaraq döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə keçirilən taktiki təlimlərdə şəxsi heyət həm qazandıqları bilik və vərdişləri nümayiş etdirir, həm də döyüş bacarığını daha da təkmilləşdirmək imkanı qazanır. Bu baxımdan qoşunlarımızın iştirakı ilə keçirilən genişmiqyaslı təlimlər miqyasına və əhatəliliyinə görə dərin maraq doğurur.

Ölkəmizin etibarlı müdafiəsini təmin etmək məqsədilə masir hərbi əməliyyatlarda böyük önəm daşıyan ən müasir döyüş vasitələrilə təmin edilmiş müxtəlif qoşun növlərinə məxsus hissə və bölmələrin birgə fəaliyyətinin və qarşılıqlı əlaqəsinin planlaşdırılması və təşkili olduqca önəmlidir. Eyni zamanda müdafiə və hücum əməliyyatlarının uğurla aparılması üçün təlimlərdə müasir silah sistemlərindən istifadə edilməsi qoşunların döyüş bacarığını daha da təkmilləşdirir.

Onu da qeyd etmək lazımdır ki, bölmələrimiz həm düşmənlə üzbəüz təmas xətti boyunca müdafiə mövqelərində gecə-gündüz demədən, ayıqsayıq döyüş növbəsi aparır, həm də döyüş hazırlığı tədbirlərində, təlimlərdə müasir hərbi texnikanın sirlərinə yiyələnir, taktiki bacarıqlarını artırırlar. Döyüş bacarığının yüksəldilməsi üçün atılan bu addımlar Azərbaycan Silahlı Qüvvələrinin gücünə güc qatır.



Genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsindən öncə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümümqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələrini dinləmişdi. Döyüş tapşırıqlarının aydınlaşdırılması, şəraitin qiymətləndirilməsi, ərazinin kəşfi, maket üzərində qarşılıqlı əlaqənin müəyyən edilməsi və qərarın məruzəsindən sonra qoşunların idarə olunması üzrə göstərişlər vermişdi.

Qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimlərə 23 min nəfərədək şəxsi heyət, 120-dək tank və zirehli texnika, 180-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 30-dək müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub.



Təlimlərin əsas mərhələsində müasir ümumqoşun əməliyyatlarının tələblərinə riayət edilməklə, mürəkkəb relyef şəraitində və şərti düşmənin ehtimal olunan fəaliyyəti nəzərə alınmaqla qoşunların, eləcə də idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib.

Müasir avadanlıqlarla təchiz edilmiş müxtəlif poliqonlar və təlim sahələrində döyüş atışları, bölmələrin və atəşin manevrləri icra olunub.

**"Azərbaycan Ordusu"**

# Cəbhəboyu zonada yerləşən daha iki yeni hərbi şəhərciyin açılışı olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən tikinti-quruculuq işləri davam edir.*

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yeni inşa edilən zenit-raket və mühəndis-istehkam hərbi hissələrinin açılışında iştirak edib.

Ərazidəki qərargah, xüsusi texnika üçün saxlanclar, əsgər yataqxanaları, yeməkxana, sıra meydanı və digər hərbi obyektlərlə tanış olunub.

Hərbi hissələrdən birində yeni inşa olunacaq yeməkxananın təməlqoyma mərasimində də iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



## 26 İyun - Silahlı Qüvvələr Günüdür

# "Hər bir dövlətin ordusu onun əsas sütunlarından biridir"

*99-cu ildönümünü qeyd etdiyimiz Silahlı Qüvvələrimizin keçdiyi inkişaf yolu və qazandığı böyük uğurlar bu gün hər bir vətənsevər soydaşımız üçün iftixar mənbəyidir. Müstəqillik illərində ordu quruculuğu sahəsində sözün həqiqi mənasında böyük işlər görülüb.*

Danılmaz həqiqətdir ki, bütövlükdə dövlətimizin və dövlətçiliyimizin xilas edilməsində fövqəladə rol oynamış ümummilli lider Heydər Əliyevin Silahlı Qüvvələrimizin də təşəkkül və inkişafında əvəzsiz rolu olub. Müstəqilliyimizin ilk illərində böyük öndərin rəhbərliyi və gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqı tədricən tənəzzül və xaosdan azad olmağı bacardı. Dövlət çevrilişi cəhdlərinə, müxtəlif maneələrə baxmayaraq, Prezident Heydər Əliyev bütün maneələri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxardı.

Ümummilli lider, təcrübəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması siyasi, iqtisadi və ictimai sahələrdə olduğu kimi, orduda da ciddi islahatların həyata keçirilməsi üçün dönüş nöqtəsi oldu. Beləliklə, Silahlı Qüvvələrin yenidən və elmi əsaslarla qurulması üçün imkan yarandı. Öncə dövlət rəhbərliyi tərəfindən orduda neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid rəhbərlik prinsipinin bərpa edilməsi, döyüş hazırlığı problemlərinə və təlim prosesinə diqqət yetirilməsi, ordunun maddi-texniki təminatının yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi. Ən vacib amillərdən biri olan kadr hazırlığına dövlət rəhbərliyi səviyyəsində diqqət və qayğı artırıldı.

2001-ci il iyunun 25-də Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə həsr edilmiş təntənəli mərasimdə Prezident Heydər Əliyev ordu quruculuğu prosesinə böyük dəyər verərək belə demişdi:



"Hər bir dövlətin ordusu onun əsas sütunlarından biridir. Deyə bilərəm ki, bəlkə də, onurğa sütunudur. Ordu tarixən həmişə dövlət üçün, xalq, millət üçün ən əziz anlayış olmuşdur. Bu, indi müstəqil Azərbaycan dövlətində də belədir. 83 il bundan öncə Azərbaycanda dövlət müstəqilliyini elan etmiş ilk Xalq Cümhuriyyəti dərhal Azərbaycan Silahlı Qüvvələrinin yaranması haqqında qərar qəbul etmişdir. Bu, təbiidir. Heç bir müstəqil dövlət, ölkə ordusuz yaşaya bilməz. Ordu hər bir ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır".

Hər bir ordunun güc və potensialını ilk növbədə onun kadrları müəyyən edir. Hələ böyük dövlət xadimi Heydər Əliyev sovet dövründə azərbaycanlı gənclərin hərbi xidmətə marağının artırılması və onların ordu sıralarında ölkəmizi layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin paytaxtımızda yaradılmasına nail oldu. Ona görə bu ibtidai hərbi təhsil müəssisəsinin mövcudluğu böyük öndərin adı ilə bağlıdır. İndi Azərbaycan Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir.

Ulu Öndər hakimiyyəti dönəmində müstəqil Azərbaycanda hərbi təhsilin müasir dünya standartlarına uyğunlaşdırılması üçün bir sıra mühüm islahatlar həyata keçirdi, hərbi məktəblərin maddi-texniki təminatı xeyli yüksəldildi.

Ümummilli Liderin 1993-2003-cü illərdə rəhbərliyi dövrü ölkəmiz üçün həlledici illər oldu, yəni o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də, xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi, ölkəmiz faktiki olaraq dünya birliyinə qovuşdu.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın işğalından azad edilməsi, eyni zamanda ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğu məsələsini dövlətin prioritet vəzifəsi elan etmişdir.

Dövlətimizin və müstəqilliyimizin qarantı olan Azərbaycan Silahlı Qüvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, hərtərəfli təchizata malikdir, yüksək intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Böyük öndərin formalaşdırdığı və onun yaratdığı zəmin üzərində inkişaf etmiş Silahlı Qüvvələrimizin bu gün nəyə qadir olduğu işğalçı Ermənistanın silahlı birləşmələrinə qarşı aprel döyüşlərində nümayiş etdirildi. Cəsur Azərbaycan zabit və əsgərlərinin gücü ilə cəbhəyanı yaşayış məntəqələrimizə təhlikə yaradan yüksəkliklər düşməndən birdəfəlik təmizləndi. Bununla ordumuz bir daha sübut etdi ki, işğal edilmiş ərazilərimizi azad etməyə və Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirdir.

İyunun 14-də ölkə başçısının cəbhəyanı bölgəyə səfəri zamanı yenidən qurulan Cocuq Mərcanlı kəndində ordu quruculuğu ilə bağlı söylədiyi fikirlər bir daha dövlət rəhbərliyinin Azərbaycanın taleyüklü məsələlərinə necə həssaslıqla yanaşmasını göstərir. Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində Cocuq Mərcanlı kəndinin bərpasının mümkün olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. "Ordu quruculuğu ölkəmizdə uğurla gedir. Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir, ordumuza lazım olan bütün ən müasir texnika, silah-sursat alınır, gətirilir, eyni zamanda, Azərbaycanda bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir. Üç rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır".

Dövlətimizin təhlükəsizliyinin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti qarşısında hansı mühüm vəzifələrin durduğunu aydın dərk edərək, özünün döyüş qüdrətini yüksəltməklə məşğuldur və hər bir tapşırığı müvəffəqiyyətlə yerinə yetirmək üçün güc və iradəsini əsirgəmir.

Qarşıdan gələn il Silahlı Qüvvələrimizin yubiley ili olacaq. İnanırıq ki, 2018-ci ildə ordumuzun qüdrəti daha artıq, döyüş hazırlığı sahəsində uğurları daha çox olacaq.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

*Hərbi təhsil*

# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib

*İyunun 22-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2017-ci il buraxılışı münasibətilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə iştirak edib. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə mərasimə hazırlıq barədə raport verib.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov kursantları salamlayıb, Heydər Əliyev adına Hərbi Lisey kursantlarının 17-ci buraxılışı - məzun günü münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri təbrik edərək deyib: Builki məzunlar da nəzərə alınmaqla ötən dövr ərzində Heydər Əliyev adına Hərbi Liseyi 2353 kursant bitirmişdir. Hazırda onlardan 1300-dən çoxu Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir. Bu, Ulu Öndərimizin adını daşıyan hərbi təhsil müəssisəsinin müstəqil dövlətimizdə ordu quruculuğuna mühüm töhfəsidir. Ötən dövrdə hərbi lisey böyük inkişaf yolu keçmişdir. 19 il əvvəl 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 625 kursant təhsil alır. Kursantların ən müasir tələblər səviyyəsində təhsil alması, onların sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülmüşdür.



Ali Məclisin sədri deyib: Bu gün bizim ən böyük milli dəyərimiz dövlət müstəqilliyimiz və Vətən məhəbbətidir. Azərbaycan Ordusunun zabiti olmağın şərəf və məsuliyyəti də məhz bundan ibarətdir. Zabit təkcə peşə vərdişi və nəzəri hazırlığı ilə yox, eyni zamanda, mənəvi keyfiyyətləri ilə də seçilməli, nümunə göstərməyi bacarmalıdır. Sizin bir çoxunuz gələcəkdə hərbi hissələrin komandiri olacaq, hərbi təlimlərə başçılıq edəcək, şəxsi heyətlərin vətənpərvərlik tərbiyəsi ilə məşğul olacaqsınız. Bu işə indidən hazır olun! Milli dəyərlərimizi, tariximizi və qəhrəmanlıq ənənələrimizi yaxşı öyrənin. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi: "Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".

Ali Məclisin sədri bundan sonrakı təhsildə və hərbi xidmət dövründə liseyin bütün kursantlarına və məzunlarına uğurlar arzulayıb.

Hərbi liseyin rəisi, general-mayor Elman Orucov çıxış edərək deyib ki, ötən dövrdə hərbi liseydə yaradılmış maddi-tədris bazasından səmərəli istifadə olunub, məzun olan 214 kursanta hərtərəfli bilik verilib, onlar dövlətçiliyimizə və milli dəyərlərimizə sədaqət ruhunda tərbiyə olunublar. Liseydə tədrisin və təlim - tərbiyənin keyfiyyətini yüksəltmək, kursantların fiziki və mənəvi-psixoloji cəhətdən tam hazır olmaları üçün daim yeni metodlar tətbiq olunur. Kursantlar il ərzində şəhər və muxtar respublika miqyaslı fənn olimpiadalarında, idman yarışlarında, bədii özfəaliyyət baxış-müsabiqələrində müntəzəm iştirak edərək layiqli yerlər tutublar. 2017-ci ildə 670 gənc hərbi liseyə qəbul olunmaq üçün müraciət edib. Bu gün liseydə muxtar respublika ilə yanaşı, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alır. Heydər Əliyev adına Hərbi Lisey bundan sonra da peşəkar və vətənpərvər hərbi kadrların yetişdirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

Tədbirdə çıxış edən valideyn Ariz Ağayev deyib: Mən xoşbəxtəm ki, övladım hərbi peşəni seçib. Həm də ona görə xoşbəxtəm ki, övladım Heydər Əliyev adına Hərbi Liseyin məzunudur. Burada yaradılan şərait, övladlarımıza göstərilən qayğı bütün valideynlər tərəfindən razılıq və minnətdarlıqla qarşılanır. Bir də ona görə xoşbəxtəm ki, övladım dövlət müstəqilliyimizin qarantı olan və hər gün qüdrətini daha da artıran Azərbaycan Ordusunda zabit kimi xidmət edəcəkdir. Övladlarımız bundan sonra da ümummilli liderimiz Heydər Əliyevin ideyalarına sadiq qalacaq, onlara göstərilən etimadı layiqincə doğruldacaqlar.

Kursant Eldəniz Nağıyev deyib: Ordumuza bilikli və peşəkar zabitlər gərəkdir. Bu məqsədə nail olmaq üçün əzmlə çalışacaq və ərazi bütövlüyümüzün müdafiəsi naminə bütün qüvvələrimizi səfərbər edəcəyik. Biz Azərbaycanın gələcək sərkərdələriyik. Tədrisin düzgün təşkili imkan verdi ki, kursantlar yaxşı təhsil almaqla yanaşı, həm də əsl zabit kimi vətənpərvər, qorxmaz, cəsur və qəhrəman yetişsinlər. Ulu Öndərimizin ümidlərini, arzularını doğruldacaq, Ali Baş Komandanımız cənab İlham Əliyevin hər bir əmrinə hazır olacağıq:

Düşmənlərdən intiqamı
özüm almaq istəyirəm,
Məsləkimi bilsin hamı,
zabit olmaq istəyirəm.
Torpağını öz canından,
varlığından əziz tutan,
Hər atəşi hədəfinə
düz tuşlayıb sərbəst atan
Zabit olmaq istəyirəm.
Mərd əllərdə iti kəsən,
ovxarlanmış qılınc səsi
Haqq yolunda mətinləşən,
fədakarlıq nümunəsi -
Zabit olmaq istəyirəm.



Eldəniz Nağıyev liseydə hərtərəfli təhsil üçün yaradılan şəraitə görə Ali Məclisin sədrinə bütün kursantlar adından minnətdarlığını bildirib.

Sonra Ali Məclisin sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Kursant Elşad Cəfərov təhsil ocağının rəmzi kötüyünə xatirə birkaxını vurub.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Sonra Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

Ali Məclisin sədri yeməkxanada olub, kursantların qidalanması ilə maraqlanıb, valideynlərlə görüşüb.

Valideyn Naibə Nəbiyeva Ali Məclisin sədrinə minnətdarlıq edərək deyib: Hərbi liseydə kursantların hərtərəfli təhsil alması, dövlətimizə, xalqımıza layiqli övlad kimi yetişməsi üçün bütün şərait yaradılıb. Lisey inkişaf edərək mətinlik məktəbinə çevrilib. Hər bir valideyn qürur duyur ki, övladı Heydər Əliyev adına Hərbi Liseydə təhsil alır, hərb sənətini öyrənir. Fəxr edirik ki, övladlarımız qüdrətli və yenilməz ordumuzun zabiti olacaq, müstəqil Azərbaycanın müdafiəsində ayıq-sayıq dayanacaqlar. Daim onların qələbə sədasını eşitmək bir ana, valideyn olaraq bizim ən böyük arzumuzdur.

Liseyin müəllimləri ilə görüşən Ali Məclisin sədri deyib: Müəllimlərin fəaliyyətinin nəticəsi olaraq bu il liseyin 214 kursantı Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olunub. Bu, gələcəkdə ordumuzda xidmət edəcək 214 zabit deməkdir. Ordunun möhkəmliyi, ordunun inkişafı zabit hazırlığından başlayır. Heydər Əliyev adına Hərbi Liseyin müəllimləri gələcəyin zabitini yetişdirməklə yanaşı, həm də ölkəmizin sərhədlərinin etibarlı müdafiəsinə zəmin yaradırlar. Ona görə də hər bir kursant hərtərəfli hazırlanmalı, ölkəsinin tarixini bilməli, milli dəyərlərinə hörmət etməlidir. Heydər Əliyev adına Hərbi Liseydə kursantların təhsili, təlim-tərbiyəsi və vətənpərvər yetişməsinə ciddi diqqət yetirilir. Bütün bunların nəticəsidir ki, liseyin məzunları ali hərbi məktəblərdə təhsillərini uğurla başa vururlar.

Ali Məclisin sədri Heydər Əliyev adına Hərbi Liseydə tədrisin və təlim-tərbiyənin hərtərəfli təşkilinə görə kollektivə təşəkkür edib.

# Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölmələrində əsgərlərlə görüş

*26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölmələrində əsgərlərlə görüş olub.*



AZƏRTAC xəbər verir ki, tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Mirqiyas Rüstəmov çıxış edərək, əlamətdar gün münasibətilə əsgər və zabitləri təbrik edib.

Sonra Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənlinin, Naxçıvan Dövlət Universitetinin müəllimi Qurban Qurbanlının, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri Asəf Orucovun, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin şöbə müdiri Nizami Əzizəliyevin çıxışları olub. Çıxış edənlər ölkəmizdə, o cümlədən muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərdən danışıb, əsgər və zabitlərimizə ən səmimi arzularını çatdırıblar.

Tədbirin bədii hissəsində Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" instrumental ansamblının solistləri tərəfindən şux mahnılar səsləndirilib.

# Əsgərlərin bayram arzuları



*"N" hərbi hissəsinə ezamiyyətimiz 26 iyun - Silahlı Qüvvələr Günü ərəfəsinə təsadüf edib. Azərbaycan Ordusunun yaranmasının 99 illik yubileyi ərəfəsində cəbhə bölgəsində düşmənlərimizlə üz-üzə duran, Azərbaycan torpaqlarını göz bəbəyi kimi qoruyan oğullarımızla görüşmək imkanı qazanırıq. Fürsətdən istifadə edərək əsgərlərin bayram təssüratlarını öyrənirik.*



**Əsgər Kamil Məmmədov:** - Azərbaycan Ordusu gündən-günə güclənir. Silahlı Qüvvələrimizin hazırlıq səviyyəsi çox yüksəkdir. Ötən ilin aprel döyüşlərində ordumuz tariximizin yeni mübarizə səhifələrini yazdı. Qəhrəman əsgərlərimiz düşmən tapdağı altında olan Vətən torpağını düşməndən geri almaq üçün böyük şücaət göstərdi.

Bu gün mən də ön cəbhədə xidmət etməyimlə fəxr edirəm. Xalqımız narahat olmasın, ordu elə gücdədir ki, istənilən an torpaqlarımızı işğaldan azad edə bilərik. Allah mənə və bütün əsgər yoldaşlarıma, o cümlədən, xalqımıza qələbə bayramı qismət eləsin. Bu gün 26 İyun - Silahlı Qüvvələr Günü, ümumxalq bayramıdır. Fürsətdən istifadə edib valideynlərimi, xalqımızı, əsgər dostlarımı və bütün hərbi qulluqçuları 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik edirəm. Bayramınız mübarək!

**Əsgər İlqar Quliyev:** - Biz bu gün səngərdə dayanıb torpaqlarımızı qoruyuruq. Xalqımız bizə arxalanır, bizə güvənir. Bu güvənc məsuliyyətimizi, Vətənə bağlılığımızı daha da artırır.

Güclü ordunun əsgəri kimi komandirlərimizin rəhbərliyi ilə döyüşə çıxmağa, hər zaman torpaqlarımızı azad etməyə hazırıq. Azərbaycan Silahlı Qüvvələri indiki səviyyəsinə çatmaq üçün müəyyən mərhələlərdən keçib. Bu yolda ağrı-acılı günlər də az olmayıb. Həmin əziyyətin, bəhrəsidi ki, bu gün Silahlı Qüvvələrimiz dünyanın qüdrətli orduları sırasındadır. Başda Ali Baş Komandan olmaqla, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bayram münasibətilə təbrik edirəm.



**Əsgər Vüsal Bayramov:** - Bu gün istənilən bir təhdidə və təhlükəyə boyun əymədən, Vətən torpağını, ay-ulduzlu bayrağımızı və sərhədlərimizi qəhrəmancasına qoruyuruq.

Bizə stimul verən amil xalqımızın Silahlı Qüvvələrimizə tükənməz sevgisidir. İnanıram ki, hər zaman analarımızın, atalarımızın, bacılarımızın, qardaşlarımızın xeyir-duaları bizləri qoruyur. Qəhrəmanlarımızın keçdiyi döyüş yolu bizə ən dəyərli örnəkdir. Güclü dövlətimiz və millətimiz hər an bizlərlədi. Bayramlar, insanlar arasındakı qarşılıqlı sevgi və hörməti formalaşdırır. Həmişə bir yerdə, sevgi dolu və dinc ölkəmizdə bayramlar keçirmək diləyi ilə, torpaqlarımızın işğaldan azad olunması arzusu ilə 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə əzizlərimi salamlayır, xalqımıza Qələbə sevinci arzulayıram!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## "Dəniz kuboku - 2017" yarışlarının planlaşdırılması ilə əlaqədar İran nümayəndə heyəti Bakıda olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkəmizin Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz kuboku - 2017" beynəlxalq yarışlarının planlaşdırılması ilə əlaqədar İran İslam Respublikasının nümayəndə heyəti Bakıda olub.

Hərbi Dəniz Qüvvələrində keçirilən görüşdə təlimin qaydaları, təhlükəsizlik, rabitə mübadiləsi və mədəni-ictimai tədbirlər kimi mövzularda müzakirələr aparılıb.

Qonaqlar oyunların keçiriləcəyi təlim-tədris kompleksinə də baxış keçiriblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Düşmənin təxribat qrupunun üzvü ələ keçirilib

İyunun 20-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttində müdafiə xəttini keçməyə cəhd göstərib.

Bölmələrimiz tərəfindən aşkar edilən düşmənə qarşı görülən qabaqlayıcı tədbirlər nəticəsində kəşfiyyat qrupu itki verərək geri çəkilməyə məcbur edilib. Təxribat qrupunun bir üzvü ələ keçirilib.

Hadisə ilə bağlı əlavə məlumat veriləcək.

### Ermənistana məxsus PUA məhv edilib

İyunun 21-i axşam saatlarında cəbhənin Tərtər istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) məhv edilib.

Ermənistan növbəti dəfə döyüş PUA-dan istifadə edib

### Monitorinq baş tutdu

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 23-də Goranboy rayonu Tapqaraqoyunlu kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***23 iyun 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatandan da (1 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 117 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Qızılhacılı kəndlərində, Berd rayonunun Mosesqex, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Əsgər!
Sənin hansı evdə, kimin oğlu olaraq doğulmağın bu an önəm daşımır, çünki indi sənin evin səngərdir, kazarmadır, əsgər yoldaşlarınla birgə yaratdığın, başınız üzərində müqəddəs bayrağımızın dalğalandığı məkandır, iştirakçısı olduğun mühitdir... Çünki sən indi Vətənin oğlusan!
Əsgər!
Sənin nə peşənin sahibi olduğun maraqlı deyil, çünki indi sən ən müqəddəs işi həyata keçirirsən - Vətən qoruyursan, Vətən!
İndi bu Vətənin hər bir anası sənin anan, hər bir qızı sənin namusundur.
Əsgər!
Ayağının altındakı torpaq sənin gücündür, qüdrətindir, andındır, şərəfindir!
Əsgər!
Sən şərəfli və bəlkə, ən məsuliyyətli adı daşıyırsan!.. Bu adı, bilirsənmi, kimlər daşıyıb? - Mübarizlər, Çingizlər, Muradlar, Naiqlər, Qasımlar, Şamidlər,
Bəzilərini yaxından tanıyırdım... Hamısınınsa Ruhunu, Yolunu tanıyıram...
Onlar əsgər adını, şərəfini hər şeydən üstün tutdular, əsl əsgər kimi də qəhrəmanlıqla şəhid oldular. Ayağının altındakı torpaqda onların qanı var, əziz əsgər..! Unudulmadılar amma... Unudulmayacaqlar! Bu məktubu da bir zamanlar fəxrlə əsgər dediyim o dostlarımın adından yazıram...
Sənə güvənirik, əsgər!

**Qənirə PAŞAYEVA,**
**millət vəkili**

Salam, Azərbaycan əsgəri!
Bu gun sizlərin bayramıdır. Kikboksing federasiyası adından və şəxsən öz adımdan 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə bütün əsgərlərimizi və zabit heyətimizi səmimi qəlbdən təbrik edirəm. Azərbaycanımızın dünəni, bu günü, sabahı sizlərə tapşırılıb. Torpaqlarımız uğrunda axan əsgər qanları hələ də qurumayıb, şəhid ruhları Böyük Azərbaycanımız üzərində narahat dolaşır. Bu Vətən sizə əmanətdir. Böyük Allahdan sizlərə dözüm, güc, qüvvə arzu edirəm. O gün olsun, gələn ilin bu gününü, bu bayramı geri alınmış Qarabağ torpağında qeyd edək. Müstəqil, azad ölkəmizdə rahat yaşamağımıza səbəb sizlərsiniz, Azərbaycan əsgəri! Yolunuz ulu öndər Heydər Əliyev yoludur. Vətənpərvərlik düşüncəsi, milli-mənəvi dəyərlərin gənc nəslə təbliği ulu öndər Heydər Əliyevin sizlərə vəsiyyətidir. Bu yolda Allah hər birinizi qorusun. Bir daha bayramınız mübarək!

**Adil ƏLIYEV,**
**millət vəkili**

Salam, əsgər!
Bir əsgər anası kimi sənə xoş sözlərimi, gözəl dualarımı göndərirəm. Ən yüksək rütbəli zabitlərdən gənc əsgərə qədər hər birinizi Allaha əmanət edirik. Uca Tanrı hamınızı qoruyaraq sevdiklərinizə qovuşdursun! Biz sizinlə fəxr edirik. Böyük Azərbaycan xalqı sizinlədir. Minlərlə anaların duaları sizin üçündür. Qoy gücünüz daha da artsın! Səni bağrıma basıram əsgər balam kimi!

**Əsgər anası**

Salam, əziz əsgər! Sizin Vətənimizin sərhədlərinin, ərazi bütövlüyümüzün qorunmasındakı xidmətləriniz hər bir Azərbaycan vətəndaşı kimi, biz idmançıları da qürurlandırır. Sizinlə fəxr edirik. Bütün dünya ötən ilin aprel ayında baş tutan 4 günlük döyüşlərdə Azərbaycan əsgərinin gücünün, qüdrətinin şahidi oldu. Biz əminik ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında başladılan böyük qayıdış yaxın vaxtlarda uğurla yekunlaşacaq. Biz bu günü səbirsizliklə gözləyirik. Bu şərəfli yolda sizin hər birinizə can sağlığı, möhkəm iradə və əzmkarlıq arzulayırıq.

**Rövşən BAYRAMOV,**
**Olimpiya mükafatçısı**

*Əsgər adı ilə hamımız qürurlanırıq. Tanımadığımız əsgərləri də əzizimiz bilirik. Hamı səngərlərdə Vətəni qoruyanlara güvənir, onların Vətən sevgisinin işığını gözlərinə nur bilir.*
*Cəmiyyətdə tutduğu mövqedən, təhsilindən asılı olmayaraq hamının əsgər adına qədərsiz ehtiramı var. Bu ehtiram, bu güvənc, bu sevgi Vətənə xidmətin şərəfini yaşayan əsgərin məsuliyyətini daha da artırır. Səngərlərdə döyüş növbətçiliyi aparan əsgər üçün ən böyük mükafat bu ehtiram, bu sevgidi...*
*Sosial şəbəkələrdə "Əsgərə məktub" kampaniyasına başlanılıb. Bu səmimi məktublardan bir neçəsini dərc edirik.*

**"Azərbaycan Ordusu"**



# Əsgərə məktub

Azərbaycanın bütün hərbi qulluqçularına möhkəm can sağlığı arzulayıram. Vətənə sevgi, vətənpərvərlik göstərdiyinizə, ölkəmizi qoruduğunuza, bizə sülh və əmin-amanlıq bəxş etdiyinizə görə sizə minnətdaram. Allah sizi və yolunuzu gözləyən, sizi sevən ailənizi qorusun.

**Mariya STADNIK,**
**Olimpiya mükafatçısı**

Əziz əsgər!
Kiçik yaşlarımda əsgər kimdir, o qədər də anlamırdım. Onlara sadəcə, bir gözlə baxırdım - qəhrəman, qeyrətli oğullar kimi. Hələ 12 yaşımda, uşaqkən özüm də çox canfəşanlıq etdim ki, mən də əsgər olum. Ağdamda bizim qəhrəman döyüşçülərimizə qoşuldum. Amma əlbəttə, mən onda Vətənin keşiyində o qəhrəman oğullarımız kimi dayana bilməzdim, əsl əsgər ola bilməzdim. Amma hər gün, hər saat dua edirdim. İstəyirdim ki, mən də çox tez böyüyüb əsgər olum. Əsgər mənim üçün kimdir? Millətin, dövlətin rəmzidir, kişiliyi, qeyrətidir. Əsgər torpaq deməkdir. Əsgər bizim dünənimiz, sabahımız deməkdir. Mən, həqiqətən, yenidən əsgər olub, millətim üçün, torpağım üçün qəhrəmancasına canımı qurban verib, şəhid olmaq arzusuyla yaşayıram. Bunun üçün hətta dua da edirəm. Allah bu millətə, bizə layiqincə, öz şərəfi ilə işğal altındakı torpaqlarımızı geri almağı nəsib etsin. Və o gün olacaq. Sənin sayəndə olacaq!

**Fariz MƏMMƏDOV,**
**boksçu**

Ölkəmizin bütün əsgərləriylə fəxr edirəm. Bütün xalqımız, ordumuzla fəxr edir. Allah sizə can sağlığı, güc, iradə, Vətən sevgisi və qələbə nəsib eləsin. Amin.

**Rəsul ÇUNAYEV,**
**Olimpiya mükafatçısı**

Səlamın Əleyküm, can qardaşlarım. Türkiyədə polis məmuru olaraq vəzifəmi yerinə yetirirəm. Sizlər kimi mən də silah daşıyıram, bir-birimizi ən yaxşı biz anlarıq. Millət vəkiliniz Qənirə Paşayevanın paylaşımında gördüm və bu gecə mən də sizlərə yazmaq istədim. Hamınız bizim canımız, qardaşımız, qandaşımızsınız. Qarabağda yel əssə, biz İstanbulda, Ankarada üşüyərik. Atalarımız böyük bir coğrafiya buraxıb, lakin türk kimi güçlü olmağa məcburuq. Rəbbim hamımızın yardımcısı olsun.
Saygılar, qardaşlarım. Allah qorusun sizləri.

**Ümit ERDEMCİ,**
**Türkiyə**

Əziz Vətən oguları, hər gün bir mövzu ilə sizi anıb xatırlayırıq. Mən hüquqşünasam. Ətrafımda yüzlərlə həmkarım var ki, aprel döyüşlərində könüllü sizə qoşulmaq üçün imza toplamışdıq. Dünyada tək bir peşəyə kişilik məktəbi deyirlər. O da əsgərlikdir. Siz unutmayın ki, o məktəbi şərəflə, qürurla başa vuran igidin başı həmişə uca olur. Ümid edirəm ki, sizlərlə bir səngəri bölüşməyi Allah qismət edəcək. Allah şahiddir ki, qəlbimiz düşməndən intiqam almaqçün hər gün alışıb yanır.
Sizlərdən bir xahişimiz var, özünüzə, sağlamlığınıza diqqət edin, çünki siz Vətən əmanətisiz, yurd əmanətisiz. Sizləri böyüdən anaların əllərindən öpürəm. Zəfər günü yaxındadır. İnşallah ki, düşmənə gərəkən zərbəni vurmağı Allah bizlərə nəsib edəcək. Allaha əmanət olun!!!

**Səbuhi AXUNDOV,**
**hüquqşünas**

Salamlar olsun əsgər qardaşlarımıza Tatarıstanın paytaxtı Kazan şəhərindən. Hər gün xəbərləri izləyirəm. Sizin şücayətinizdən eşidəndə sevinirəm. Şəhidimiz olanda həm kədərlənirəm, həm də sevinirəm. Sevinirəm onunçün ki, Şəhidlik zirvəsi hər əsgərə qismət olmur. Kədərlənirəm ki, düşmən buna sevinir. Mən 3 il 6 ay qulluq etmişəm cəbhə bölgəsində. Sizinlə Azərbaycan fəxr edir. Sizə uğurlar arzulayıram.

**Elman CƏFƏROV,**
**Tatarıstan**

Fəxrimiz, qürurumuz, şəxsən tanımadan sonunadək güvəndiyimiz, igid Əsgər! Bizlərin rahat yaşaması, körpələrin xoşbəxt böyüməsi, yaşlıların sakit ömür sürməsi üçün gözünü qırpmadan o dəyərli canını bu torpaq, bu Vətən uğrunda heç bir qarşılıq gözləmədən fəda etməyə hazır olduğunu bilirəm. Artıq təkcə doğulduğun evin, ailənin övladi deyilsən, hamımızın doğmasısan, əzizisən, yaxınısan. Cismani olaraq səndən çox uzaqda olsaq belə, sənin bizi qoruduğun, əvəzsiz hərəkətin qarşılığında əlimizdən heç nə gəlməsə belə, əmin ol ki, hər duamızda sən varsan. Əmin ol ki, qoruduğun bu xalq səni və digər əsgər yoldaşlarını bir an belə unutmur, hər an, hər dəqiqə sizlərdən gələcək müjdəli xəbəri gözləyir. Allah daim səninlə olsun, səni qorusun, mərd, şərəfli Azərbaycan Əsgəri!

**Lalə ƏLİYEVA**

Salam Əsgər!
Allahın salamı və bərəkəti olsun üzərinə, mənim xalqımın qeyrətli, mərd, igid oglu!
Sən məni tanımırsan. Mən sənin canın bahasına qoruduğun ana-bacılarından biriyəm. Bu gün mən və o ana bacıların sənin sayıqlığın, mərdliyin, igidliyin sayəsində evimizdə rahat yata, gündəlik fəaliyyətimizlə məşğul ola bilirik. Bu gün sənin sayəndə dövlətim müstəqil, vətəndaşımız azaddır. Allah sənin qoluna qüvvət versin. Ananın südü, atanın çörəyi, Vətənin, xalqın əziyyəti sənə halal olsun. İgid əsgər, möhkəm dayan!

**Fidan İMAMƏLİYEVA**

Salam, Vətən keşikçisi, düşmən çəpəri Azərbaycan əsgərləri! Hər birinizi Silahlı Qüvvələrin yaradılmasının 99-cu ildönümü münasibətilə təbrik edirəm, sizlərə can sağlığı, uzun ömür, müzəffər Azərbaycan Ordusunun qalib əsgəri olmağı arzu edirəm. Tanrı sizləri qorusun!

**Mehman FƏRHADOV**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Məhəmməd NƏSİRLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 297 Nüsxə 4650 |